“Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   27 may 2015-ci il   № 40 (1956)   Qiyməti 25 qəpik


# Azərbaycan müstəqillik yolunda inamla addımlayır

## Müasir dövlətçiliyimizin formalaşmasında müdrik rəhbər Heydər Əliyevin misilsiz xidmətləri vardır

***Bu gün yer kürəsində 5 minə yaxın millət yaşayır, amma cəmi iki yüz xalqın müstəqil dövləti mövcuddur. Bu faktın özü onu deməyə əsas verir ki, azadlığa qovuşmaq və onu qoruyub saxlamaq çox mürəkkəb tarixi prosesdir. Əslində suveren dövlətçiliyə sahib olmaq hər bir millətin ən mühüm məqsədi və arzusudur. Tarix boyu bir çox millətlər öz müstəqil dövlətini qurmaq üçün gərgin mübarizələrdən keçib. Amma böyük qurbanlar, çətinliklər hesabına əldə olunmuş müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Öz dövlət müstəqilliyinin 97-ci ildönümünü təntənə ilə qeyd edən Azərbaycan xalqının, sözün həqiqi mənasında, hədsiz qürur hissi keçirməyə haqqı var. Çünki Azərbaycanın dövlət müstəqilliyinin möhkəm bünövrə üzərində qurulması artıq bütün dünyaya bəllidir.***



Tarix boyu zəngin milli sərvətlərinə görə böyük imperiyaların iqtisadi maraqlarının qurbanı olan Azərbaycan ötən yüzillikdə iki dəfə istiqlaliyyətini əldə etmək, özünün müstəqil dövlətini yaratmaq şansını qazanıb. 1918-ci ildə Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yarandı və özünün dövlətçilik atributlarına sahib oldu. Təəssüf ki, xarici qüvvələrin təcavüzü qarşısında tab gətirə bilməyən Cümhuriyyətimizin ömrü çox qısa oldu. Ətrafda baş verən siyasi böhran və xarici müdaxilələr üzündən ilk dövlətçiliyimiz cəmi 23 ay ömür sürməyə nail oldu.

Əslində ilk dövlətçiliyimizin təşəkkül tapması xalqımızın milli oyanışının məntiqi nəticəsi idi, əsrlərlə böyük dövlətlərin basqıları ilə üzləşən Azərbaycanın müstəqillik qazanması, qısa vaxt ərzində dövlətçilik atributlarını yaratması qədim Şərqin tarixində əlamətdar hadisə idi. Azərbaycanı müstəqilliyə aparan yol gərgin mübarizələrdən keçirdi. Yuxarıda qeyd etdiyim kimi, zəngin təbii sərvətləri ilə Azərbaycan daim dünyada söz və güc sahibi olan dövlətlərin diqqətini özünə cəlb edib. Həmçinin, ölkəmizin mühüm geosiyasi məkanda yerləşməsi, dənizə çıxışının olması da burada hegemon qüvvələrin iqtisadi maraqlarının toqquşmasına səbəb olub. Amma ömrü boyu xalqının işıqlı sabahını düşünərək bütün həyatını bu müqəddəs amala həsr edən, müstəqillik arzusunu gerçəkləşdirmək istəyi ilə alışıb yanan vətənpərvər insanların yorulmaz səyləri nəticəsində bütün bu maneələr dəf edildi və nəticədə müstəqil Azərbaycan dövləti yarandı.

Bu danılmaz bir həqiqətdir ki, müstəqil dövlətçiliyin qorunub saxlanmasında ən vacib amillərdən biri ölkənin hərbi gücüdür. Hələ ötən əsrdə çar ordusunda layiqli hərbi ənənələri ilə ad-san qazanmış tarixi sərkərdələrimizin Cümhuriyyətimizin təşəkkül tapmasında və formalaşmasında böyük xidmətləri olub. Belə vətənpərvər, peşəkar hərbçilərin adları xalqımızın yaddaşında əbədi yer tutur. Təsadüfi deyil ki, o dövrdən yüz illər ötməsinə baxmayaraq, xalqımız öz sərkərdələri, hərb xadimləri ilə fəxr edir, onların xatirəsini ehtiramla anır. Bu günlər dövlət başçımızın sərəncamları ilə ölkəmizin hər yerində məşhur artilleriya generalı Əlağa Şıxlinskinin anadan olmasının 150 illiyi və istedadlı hərb xadimi Cəmşid Naxçıvanskinin 120-ci ildönümü əsl ümumxalq təntənəsi ilə qeyd edilir. Azərbaycan xalqı dəyərli sərkərdələrinin xatirəsini həmişə uca tutur və onların hərbi ənənələrini qoruyub saxlayır. Məhz belə görkəmli hərb xadimlərinin fəal iştirakı ilə Cümhuriyyət dövründə Əlahiddə Azərbaycan Korpusunun yaradılması nəticəsində ölkəmizdə ilk milli ordu quruculuğunun bünövrəsi qoyulmuşdu.

Amma 20-ci əsrin əvvəllərində yaranmış mürəkkəb tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi. Mürtəce qüvvələrin əlbir təcavüzü ilə Azərbaycanın ilk dövlətçiliyi süquta uğradı. Buna baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi tədbirlər xalqımızın tarixində milli dövlətçilik ənənələrinin bərpası baxımından böyük rol oynadı. Cümhuriyyətin mövcudluğu xalqımıza azadlıq və müstəqillik ideyalarının aşılanması yolunda güclü bir təkan idi. Məhz buna görə də sonrakı dövrlərdə müstəqillik hissləri xalqımızın yaddaşından silinmədi və azadlıq ideyaları şüurlara əbədi həkk olundu.

Nəhayət, 20-ci əsrin sonlarına yaxın xalqımız ikinci dəfə öz müstəqilliyinə qovuşmaq imkanı qazandı. Sovet İttifaqının süqutu ilə başlanan tarixi proseslər Azərbaycanın da müstəqil və suveren dövlətçiliyini yaratmasına imkan verdi. Amma bu dəfə də xalqımız imperiya qüvvələrinin təxribatları ilə üzləşdi və sərhəd bölgələrimiz hərbi təcavüzə məruz qaldı. İmperiyanın hərtərəfli dəstək verdiyi Ermənistanın hərbi bölmələri tərəfindən Dağlıq Qarabağ və digər bölgələrimiz işğal edildi. Təsəvvür edin, gənc müstəqil bir dövlət öz iqtisadiyyatını qurub yaratmağa macal tapmadan müharibə meydanına çevrildi.

Tarix sübut edir ki, hər bir xalqın müstəqilliyi və suverenliyi müdrik liderlərin, təcrübəli dövlət xadimlərinin adı ilə bağlıdır. 20-ci əsr xalqımıza belə bir güclü lider nəsib etdi. Böyük öndərimiz Heydər Əliyev elə tarixi şəxsiyyətlərdəndir ki, onun keçdiyi həyat yoluna nəzər yetirdikdə xalqımızın dünəni, bu günü və sabahı aydın görünür. Azərbaycanın müstəqil dövlətçilik ənənələrinin davam etdirilməsi istiqamətində onun həyata keçirdiyi bütün islahatların hər biri tarixi əhəmiyyət kəsb edir. Hələ keçmiş postsovet məkanında siyasi iradə nümayiş etdirən təcrübəli dövlət xadiminin misilsiz xidmətləri sayəsində hazırda müstəqil Azərbaycanın iqtisadi dirçəlişində əsaslı baza rolunu oynayan sənaye və kadr potensialı yaradıldı. Hərbi nöqteyi-nəzərdən təhlil aparsaq, ulu öndərin siyasi qətiyyətinin nəticəsi olaraq Bakıda ibtidai hərbi təhsil ocağının - indiki C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması tarixi hərbi ənənələrimizin bərpa edilməsinə güclü zəmin yaratdı. Bu təhsil ocağının yaranması ilə gənc nəsildə hərbə maraq oyandı və bu gün cəsarətlə deməyə hüququmuz var ki, Azərbaycanın hərbi təhsil sistemi məhz bu məktəbin bazasında formalaşıb.

Artıq müasir dövrdə regionda əsas güc sahibi olan qüdrətli Silahlı Qüvvələrimiz formalaşaraq müstəqilliyimizin əsas təminatçısına çevrilib. Yaxşı xatırlayıram, bir dəfə ümummilli liderimiz Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin ildönümü mərasimlərindən birində fəxrlə demişdi ki, "bu gün bu salonda əyləşən zabitlərimizə baxanda qürur hissi duyuram ki, onlar mənim çətinliklə yaratdığım bir məktəbin yetirmələridir". Həmin tədbirdə mən də iştirak edirdim. Doğrudan da, liseyin məzunları olan generallara, zabitlərə baxanda düşünürdüm ki, həqiqətən böyük öndərimiz bu məktəbi yaratmaqla xalqımızın parlaq gələcəyi naminə misilsiz bir nailiyyətə imza atıb. Hər bir vətəndaşımız yaxşı bilir ki, böyük öndərin siyasi kursunun layiqli davamçısı kimi Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən mühüm siyasi xətt Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə, qüdrətlənməsinə xidmət edir. Bir sözlə, ümummilli liderimizin siyasi kursunun davam etdirilməsi tarixi zərurət olmaqla bərabər, Azərbaycanın dövlət müstəqilliyinə əbədi təminatdır.

Bu gün müstəqil Vətənimizin imzası dünyanın hər yerində tanınmaqdadır, regionda həyata keçirilən mühüm iqtisadi layihələrdə Azərbaycanın önəmli yeri vardır. Birinci Avropa oyunlarına ev sahibliyi edəcək dövlətimizin siyasi, iqtisadi və hərbi qüdrəti möhkəmləndikcə hər bir azərbaycanlının köksü iftixarla döyünür. Birmənalı qeyd etmək lazımdır ki, tarixi müstəqilliyimizin möhkəmlənməsinə təminat verən əsas amillərdən biri də müasir Azərbaycan Ordusunun gücü və qüdrətidir. Öz sıralarında minlərlə vətənpərvər gənci birləşdirən doğma ordumuzun peşəkarlıq səviyyəsi son vaxtlar ardıcıl keçirilən genişmiqyaslı təlimlərdə özünü aydın büruzə verir. Hər bir gənc nümunəvi xidmət etməklə müstəqil Azərbaycanımıza bir övlad borcunu şərəflə ödəməyi özünə müqəddəs borc bilməlidir və dərindən başa düşməlidir ki, dövlətimizin qüdrətlənməsində onun da öz payı var. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, "Vətənə, xalqa və dövlətə xidməti ömrünün mənası hesab edən hərbi qulluqçularımız müstəqil Azərbaycana töhfə verməkdən qürur hissi duymalı, Vətənimizin etibarlı müdafiəsində öz bacarıqlarını əsirgəməməlidir".

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

---

28 May Respublika Günü münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 28 May Respublika Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması respublikamızın tarixində ən əlamətdar hadisələrdən biri olmaqla, xalqımızın azadlıq, müstəqillik arzusu ilə yaşaması əzmini bir daha nümayiş etdirmişdir.

1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etməsinə baxmayaraq, yalnız ümummilli liderimiz Heydər Əliyevin xalqımızın təkidi ilə yenidən hakimiyyətə qayıdışından sonra ulu öndərin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində respublikamız müstəqilliyini, varlığını itirmək təhlükəsindən xilas olaraq sivil, demokratik inkişaf yoluna qədəm qoymuşdur. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadi inkişafı təmin edilmiş, demokratik hüquqi dövlət və ordu quruculuğu sahəsində böyük uğurlar qazanılmışdır.

Bir neçə gündən sonra Azərbaycanda keçiriləcək ilk Avropa Oyunları ölkəmizin beynəlxalq aləmdə nə qədər böyük nüfuza malik olduğunun və respublikamızın tərəqqisinin təzahürüdür.

İnanıram ki, siz Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və ictimai-siyasi hazırlıqda yeni uğurlar əldə edəcək və Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında üçrəngli Dövlət bayrağımızı işğal altında olan əzəli və əbədi torpaqlarımızda dalğalandıracaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

---

## Azərbaycanın Xarici İşlər Nazirliyinin “Şərq Tərəfdaşlığı” Zirvə Toplantısının yekun Bəyanatı ilə əlaqədar açıqlaması

Azərbaycan Respublikası tərəfindən Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrinin Riqa Bəyanatı ilə əlaqədar Avropa İttifaqına Bəyanat təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidməti bu barədə açıqlama yayıb.

Açıqlamada bildirilir ki, Azərbaycan Respublikası avropalı tərəfdaşların "Şərq Tərəfdaşlığı"nın gündəliyində olan məsələlərin tam şəkildə bu Bəyanat vasitəsilə əhatə edilməsi cəhdlərini qeyd edir. Azərbaycan Respublikası Avropa İttifaqının ziddiyyətli üslubdan yan keçərək, həssas və təhdid doğuran məsələləri cavablandırmaq cəhdlərini alqışlayır.

Açıqlamada deyilir: "Amma Azərbaycan Respublikası bəzi məsələlərin kompromis mövzusu ola bilməyəcəyini vurğulayır. Belə ki, bir sıra "Şərq Tərəfdaşlığı" ölkələri hərbi işğal, etnik təmizləmə və əhalinin zorla öz torpaqlarından qovulması ilə nəticələnərək xaricdən tətbiq edilən silahlı münaqişələr və ərazi iddiaları ilə üzləşirlər. Bu münaqişələr beynəlxalq hüququn fundamental norma və prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin kobud şəkildə pozulması səbəbindən irəli gəlir və müşayiət olunur. Bu prinsiplər qlobal və Avropa qitəsi səviyyəsində dövlətlərarası münasibətlərin və beynəlxalq təhlükəsizlik sisteminin özəyini təşkil edir.

Avropa İttifaqının bütün tərəfdaş dövlətlərin suverenliyi və ərazi bütövlüyünə dəstəyini nəzərə alaraq, Azərbaycan Respublikası bu prinsiplərin toxunulmazlığına kölgə salmaq cəhdlərini qeyd etməyə bilməz. Bəzi tərəfdaş dövlətlərə təsir edən münaqişələrə dair güzəştli mətnin hazırlanması cəhdlərində Bəyanat layihəsinin müəllifləri beynəlxalq təcrübədə "ikili standartlar" adlanan məqamdan yan keçə bilməmişlər.

Azərbaycan Respublikası Ermənistan-Azərbaycan hərbi münaqişəsinə münasibətdə Avropa İttifaqının aydın və birmənalı mövqeyinin ifadə olunmasını gözləyir. Bu münaqişənin həllinin əsasını Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri təşkil edir.

Azərbaycan Respublikası Avropa İttifaqı tərəfindən bu qətnamələrə ciddi şəkildə riayət edilməsi və onların həyata keçirilməsinin təmin edilməsi istiqamətində birmənalı və qəti addımların atılmasını gözləyir".

Ön xətdən reportaj

# “Səngər bizi, biz Vətəni qoruyuruq!”



**_Düşmən təxribatından qalmır, bu onun xislətindədir. Təmas xəttinin gah bu, gah da digər yerində diversiya törədir, atəşkəsi pozur. Yaxşı ki, Vətənimizin keşiyində cəsur Azərbaycan oğulları möhkəm dayanıb və düşmənin istənilən məkrli cəhdlərinin qarşısını soyuqqanlılıqla alırlar._**

Yeni il ərəfəsində Ermənistan ordusunun silahlı bölmələri tərəfindən Ağdam rayonu istiqamətində qoşunların təmas xəttində daha bir insident baş verdi. Bayramqabağı "sürpriz" etməyə çalışan düşmənin kəşfiyyat-təxribat qrupu ordumuzun mövqelərində diversiya törətməyə cəhd göstərdi. Ancaq düşmənin bəd niyyəti gözündə qaldı. Erməni zinvorları mövqelərimizə soxulsa da, ayıq-sayıq döyüşçülərimiz onları vaxtında aşkar edərək, xəbis planlarını gerçəkləşdirməyə imkan vermədilər. Ermənistan ordusunun bir hərbi qulluqçusu - baş çavuş Arsen Baqdasaryan isə cəsur döyüşçülərimiz tərəfindən zərərsizləşdirilərək əsir kimi ələ keçirildi.

Maraqlıdır ki, Arsen Baqdasaryan Gəncə Ağır Cinayətlər Məhkəməsində verdiyi ifadəsində törətmək istədikləri əməli tamamilə etiraf edib: "Komandirin göstərişi ilə ərazini seçərək minalamaq əmri verildi. Post isə özümüz tərəfimizdən seçilmişdi. Vaxtı vədələşdik. Dedik ki, vədələşdiyimiz vaxtdan 5 dəqiqə keçsə, deməli, kimsə əsir düşüb. Mən baş çavuş olduğum üçün komandirə məlumat verməli idim. Mülki geyimdə, cibimdə qəpik pullarla gəldim ki, əsir düşsəm, guya sakin olduğumu deyim. Ona görə də silahsız gəldim. Xüsusi təlim keçmişəm və bu səbəbdən özümü Vazgen Qriqoryan kimi təqdim etmişəm".

Gəncə Ağır Cinayətlər Məhkəməsi bir neçə maddə ilə təqsirli bilərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.3-cü maddəsinin tələbinə əsasən, erməni diversantı 15 il müddətinə azadlıqdan məhrum etdi.

Bəli, Azərbaycanın cəsur oğulları düşmənin bəd niyyətini gözündə qoydu. Görəsən, qarşı tərəf bu hadisədən düzgün nəticə çıxaracaqmı? Amma onu bilirəm ki, Azərbaycan Silahlı Qüvvələrinin qüdrəti, Vətən oğullarının fədakarlığı nəticəsində düşmən xar və məyus olacaq.

Bu dəfə də cəbhə bölgəsinə böyük məmnuniyyət hissilə gedirəm, düşmən təxribatının qarşısını cəsarət və qətiyyətlə almış Vətən oğullarının görüşünə tələsirəm.

Səhərin alatoranında qatardan düşəndə hər yanın yaşıllığa qərq olduğu bu yerlərin təmiz havasını ciyərlərimə çəkirəm. Təbiətin bəxş etdiyi xoş ovqat yolboyu məni müşayiət edir.

Hərbi hissənin qərargahında adi günlərdən biridir. Gəlişimin məqsədini öyrəndikdən sonra növbətçi icazə verir və əsgərlərimiz məni alaqapıdan içəriyə buraxırlar.

- Hərbi hissəmizdə xidmət öz axarı ilə davam edir, - bizi gülərüzlə qarşılayan zabit Səməd Məmmədov bildirir. - Bölmələrimiz düşmənlə təmas şəraitində döyüş növbəsi aparır. Döyüşçülərimiz yüksək ovqatla Vətənimiz Azərbaycana öz övladlıq borcunu verirlər.

Zabitlə söhbət zamanı ön xəttə getmək, düşmən təxribatının qarşısını məharətlə almış Vətən oğulları ilə görüşmək istədiyimi bildirirəm.

- Heç bir problem yoxdur, - zabit Məmmədov deyir. - Ötən il dekabrın 26-da erməni təxribatçısı Baqdasaryan və onun silahdaşları mövqelərimizə keçərək təxribat törətmək istəmişdilər. Ancaq döyüşçülərimiz vaxtında onları aşkar etmiş və onların təxribat törətmələrinin qarşısını almışdılar. Ermənistan ordusunun hərbi qulluqçusu Baqdasaryanı isə bizim cəsur hərbi qulluqçularımız Şərif Vəliyev və Faiq Əhmədov hadisə yerində ələ keçirmişdilər. Onlar hərbi hissəmizin nümunəvi hərbçiləridir və hazırda hərbi hissənin Şərəf lövhəsinə onların fotoları vurulub.

Qərargahda yerbəyer başa çatdıqdan sonra birlikdə yola düşürük və "komuflajlı" UAZ asfalt yolla şütüyərək bizi ön xəttə aparır. Bir qədər keçmiş torpaq yola buruluruq. Yolun qalan hissəsi nahamar və toz-torpaqlıdır. Bu yerlərdə qaratikan kolları az qala adam boyunca qalxıb.

Hərbi bölmənin qarşısında bizi zabit Ziyəddin Cəfərov qarşılayır. Sıra ilə düzülmüş silahlı bir bölmə harasa yola düşür. Günəşin qaraltdığı Vətən oğullarının davranışında müşahidə edilən intizam, ciddilik, doğrusu, çox ürəyimdən olur.

Burada o qədər də çox ləngimirik. Fürsətdən istifadə edib bölmə komandiri ilə "ayaqüstü" bir neçə kəlmə kəsirəm, əsgərlərimizin məişət şəraitilə tanış oluram. Əsgər yataqxanasında səliqə-sahman göz oxşayır. İkiqatlı çarpayılarda təmiz yataq dəstlərini görmək olduqca xoşdur. Hər şey burada, doğrudan da, ürəkaçandır.

- Bölməmizin döyüş növbəsi apardığı mövqelərdə, demək olar ki, nisbi sakitlikdir, - bizimlə söhbətdə zabit Ziyəddin Cəfərov dedi. - Ötən gün ərzində ön xətdə düşmən tərəfdən atəşkəs rejimi pozulmayıb. Ümumiyyətlə, Ermənistan ordusunun bölmələri tez-tez təmas şəraitində mövqelərimizi atəşə tuturlar. Amma düşmənin təxribat cəhdləri döyüşçülərimizi qorxutmur və sərrast atəşlə düşməni susdururuq.

- Şəxsi heyətin məişət şəraiti ilə bağlı elə bir problemi yoxdur. Hər bir şeylə təmin olunublar. Hamam-camaşırxana şəraiti əsgərlərin ürəyincədir. Yemək-içmək də öz qaydasındadır. Ona görə şəxsi heyətin bu gün bir vəzifəsi var - döyüş növbətçiliyini ayıq-sayıq aparmaq.

Yolumuza davam edirik və qəhrəmanlarımızın xidmət etdiyi bölməyə gəlirik.

Biz bölməyə çatanda zabit Şərif Vəliyev ön xəttə getməyə, döyüş postlarını yoxlamağa hazırlaşırdı. Orta boylu, sarışın komandirin yerini-yurdunu soruşanda - əslim Qərbi Azərbaycandandır, - dedi.

Cəsur zabitimiz səhər-axşam səngərləri dolaşır, döyüşçülərimizin postlarda ayıq-sayıqlığını gözdən qoymur. Vətənin keşiyində dayanmaq, onun bir parçasını göz bəbəyi kimi qorumaqdan məsul vəzifə ola bilərmi?! Əslində Vətən oğullarının dəyəri də bundadır.

İti baxışları, suallarımıza dərhal və dolğun cavab vermək istəməsi onun bacarığından, işinə vicdanlı münasibət göstərməsindən xəbər verirdi. Bir sözlə, əsl Azərbaycan zabitinə xas keyfiyyətlərə malik bir hərbi qulluqçu dayanmışdı qarşımda.

Zabit Vəliyevlə qısa söhbət zamanı ön xətdə vəziyyətlə maraqlanıram.

- Düşmən məkrindən heç vaxt qalmır, - zabit Vəliyev deyir. - Onlar hər zaman təxribatlara əl atır, mövqelərimizi atəşə tuturlar. Hətta son vaxtlar minaatanlardan da postlarımıza atırdılar. Biz onların davranışını bilirik və əl-qol açmalarına imkan vermirik.

Zabit Vəliyevlə düşmənin məlum təxribatı barədə xəbər alıram. Həmişəki kimi ciddi baxışlarla düşmən tərəfi süzüb deyir:

- Hər gün olduğu kimi, yenə postları yoxlamağa gedirdim. Dekabrın 26-sı idi, ətrafa sakitlik çökmüşdü. Əvvəlcə gedib sol tərəfdəki postları yoxladım. Hər şey qaydasında idi, fövqəladə bir şey hiss olunmurdu. Döyüşçülərimiz postlarda ayıq-sayıq dayanmışdılar, düşmən mövqelərinin müşahidəsini aparırdılar. Onların vəziyyətilə maraqlandım, yenə ayıq-sayıq olmağı, düşməni nəzərdən qoymamağı tapşırdım.

Zabit Vəliyev sonrakı postu yoxlayır, döyüşçülərimizi həmişəki kimi diqqətli olmağa çağırır. Taqım komandiri zabit Faiq Əhmədova öz tapşırığını verir. Bu zaman qəflətən döyüş növbəsi aparan əsgər Pərviz Şıxəliyevin həyəcanlı səsi eşidilir.



Yuxarı komandanlığa tez məlumat verən zabit Vəliyev dərhal silahını götürüb zabit Faiq Əhmədovla birlikdə irəli cumur. Onların arxasınca bölmənin döyüşçüləri qaçırlar.

- Gördüm ki, mülki geyimli bir nəfər qaçmaq istəyir. Həmin istiqamətdə bizim hava hücumundan müdafiəçilər erməni helikopterini vurub salmışdılar.

- Dur! - Dərhal ona uca səslə komanda verdim. O, elə bil, özünü itirdi, ermənicə nəsə dedi, anlamadım.

Eyni komandanı rusca təkrar etdim.



Erməni dərhal uzandı yerə və əllərini araladı. Yaxınlaşıb əllərini arxadan bağladım, onun üzərində baxış keçirdim. Əyninə kurtka, cins şalvar, ayaqqabı geyinmişdi. Üzərində mobil telefon, ehtiyat telefon batareyası və bir də itiuclu bıçaq tapdım. İdman papağı vardı, onu boğazınacan keçirdim və posta gətirdik.

Yuxarı komandanlığa erməni təxribatçısını ələ keçirməyimiz barədə məruzə elədim. Sorğu-sual zamanı erməni hərbçisi əvvəlcə yalan danışmağa başlayıb. Deyib ki, guya çobandı, adı da Vazgen Qriqoryandı, səhvən azıb gəlib buraya.

Qısa zamanda yuxarı komandanlıqdan da hadisə yerinə gəlir, erməni götürüb gedirlər. Komandir hadisə yerini ciddi yoxlamağı, mina baxışı keçirməyi zabit Vəliyevə tapşırır.

- İstehkamçılarla oranı yoxlayarkən bir-birindən iki metr aralı üç piyada əleyhinə mina basdırıldığını aşkar elədik, - zabit Faiq Əhmədov söhbətə qoşulur. - Yaxşı ki, hadisə zamanı heç kim həmin minalara düşməmişdi. Görünür, helikopter vurulduğuna görə bizim döyüşçülərdən qisas almaq istəyirdilər.

Sonradan keçirilən məhkəməyə hərbi qulluqçular Şərif Vəliyev və Faiq Əhmədov da çağırılmışdı. İstintaq zamanı erməni diversant hər şeyi özü boynuna almışdı. Baqdasaryan etiraf etmişdi ki, doğrudan da, iki nəfərlə birlikdə təxribat məqsədilə bizim mövqelərə keçiblərmiş. Minaları da onlar basdırıblar. Digər iki erməni əsgərinə isə hadisə yerindən qaçmaq müyəssər olub.

Döyüşçülərimizin ayıq-sayıqlığı, cəsurluğu komandanlıq tərəfindən lazımınca qiymətləndirilib. Hərbi hissə komandiri göstərdikləri şücaətə və düşmən diversantını ələ keçirdiklərinə görə zabit Şərif Vəliyevi, Faiq Əhmədovu fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıb. Təbii ki, düşmən təxribatının qarşısının bacarıqla alınması zabit və əsgərlərimizi daha ayıq-sayıq olmağa, düşmənin hər bir hərəkətini nəzarətdə saxlamağa sövq edir.

- Hazırda sədd və səngərlərimizdə mühəndis-istehkam işləri görürük, - zabit Faiq Əhmədov bildirir. - Bildiyiniz kimi, əgər bu işlər görülməsə, mühəndis qurğuları havanın, yağışın təsirilə yararsız vəziyyətə düşər. Səngərləri qaydaya salırıq, təmizləmə, möhkəmləndirmə işləri aparırıq. Xidmətimiz bu səngərlərdə keçir. Səngər bizi, biz Vətəni qoruyuruq!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi MDB Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin iclasında iştirak etmək üçün Soçi şəhərinə gedib

Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov MDB-nin üzvü olan dövlətlərin Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak etmək üçün mayın 26-da Rusiya Federasiyasının Soçi şəhərinə yola düşüb.

Mayın 27-də keçiriləcək görüşdə nümayəndə heyətlərinin rəhbərləri müdafiə sahəsində əməkdaşlıq məsələlərini müzakirə edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**_26 may 2015-ci il._**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 65 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Tərtər rayonunun Çaylı, Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Sarıcalı, Cəvahirli, Şıxlar, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Azərbaycan və Rusiya Xarici İşlər nazirlikləri arasında 2015-2016-cı illər üçün məsləhətləşmələr planı imzalanıb

Azərbaycan və Rusiya Xarici İşlər nazirlikləri arasında 2015-2016-cı illər üçün məsləhətləşmələr planı imzalanıb.

Sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada keçirdikləri görüşdən sonra imzalayıblar.

Daha sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

Sergey Lavrov Azərbaycanın Rusiyanın Cənubi Qafqaz və Xəzər regionunda strateji tərəfdaşı olduğunu qeyd edərək deyib ki, iki ölkə arasında ticarət dövriyyəsi keçən il 16 faiz artaraq tarixi maksimuma çatıb. Azərbaycanla Rusiya regionları arasında əlaqələr inkişaf edir. Artıq Yekaterinburqda keçiriləcək IV regionlararası foruma hazırlıq başa çatır.

Rusiyalı nazir azərbaycanlı həmkarı ilə danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunulduğunu vurğulayıb. O deyib ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi Rusiya üçün priroitet məsələdir. Biz bu münaqişənin həm ikitərəfli münasibətlər çərçivəsində, həm də ATƏT-in Minsk Qrupunun həmsədri kimi danışıqlar vasitəsilə həll olunması üçün səylərimizi davam etdirəcəyik.

S.Lavrov bildirib ki, üç həftə sonra Azərbaycanda tarixdə ilk dəfə Avropa Oyunları keçiriləcək. Bu Oyunlarda Rusiyanı geniş tərkibdə həm rəsmi nümayəndə heyəti, həm də idmançılardan ibarət nümayəndə heyəti təmsil edəcək. Avropa Oyunlarının keçirilməsində Azərbaycana uğurlar arzulayırıq.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov rusiyalı həmkarının Azərbaycan-Rusiya münasibətlərinin inkişaf tempi ilə bağlı fikirlərini bölüşdüyünü qeyd edib.

Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının vacibliyindən danışan nazir bildirib ki, Sergey Lavrovun da dediyi kimi, bu problemin həlli çoxdan yetişib. Nazir rusiyalı həmkarının nikbinliyini bölüşdüyünü, dünən və bu gün onunla Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı geniş müzakirələr aparıldığını diqqətə çatdırıb.

E.Məmmədyarov Xəzər dənizinin hüquqi statusu ilə bağlı da müzakirələr aparıldığını və Azərbaycanın Xəzərin hüquqi statusuna dair mövqeyinin bir çox müddəalarda Rusiya ilə üst-üstə düşdüyünü söyləyib.

**AZƏRTAC**

# Birliklərdə döyüş atışlı taktiki təlimlər keçirilir

**_Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən Silahlı Qüvvələrin birlik, birləşmə və bölmələrində döyüşə hazır vəziyyətin yoxlanılması məqsədilə əməliyyat-taktiki, taktiki və taktiki-xüsusi intensiv təlimlər keçirilir._**

Bütün səviyyələrdə motoatıcı, tank və digər qoşunlar arasında qarşılıqlı əlaqənin yaradılması və döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə keçirilən təlimlər istənilən hava və iqlim, çətin və ağır relyef, o cümlədən gecə və məhdud görmə şəraitində döyüş atışları ilə tam müharibə vəziyyətinə yaxın elementlərlə icra olunur.

Təlimlərdə iştirak edən birləşmə və bölmə komandirləri qoşunların idarə olunmasını, şəxsi heyət isə silahların düzgün tətbiqi, döyüş texnikasının istismarı bacarığı və vərdişlərinin artırılması üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirirlər. Şəxsi heyətin əldə edəcəyi bilik və bacarıqlar gələcək döyüş fəaliyyətlərində məharətlə tətbiq olunacaq.

Yüksək bacarıq və döyüş hazırlığı ilə fərqlənən tank, PDM, artillerya qurğularının heyətləri, hava hücumundan müdafiə və motoatıcı bölmələrin şəxsi heyəti təlim rəhbərliyi və komandanlıq tərəfindən həvəsləndiriliblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

Təlim

# “Məqsədimizə çatacağıq”

İstər döyüş, istərsə də təlim zamanı uğurun qazanılmasında istehkamçıların rolu böyükdür, danılmazdır. Minaların basdırılması, zərərsizləşdirilməsi, keçidlərin açılması, körpülərin quraşdırılması, istehkamların qurulması və s. kimi döyüş tapşırıqlarının yerinə yetirilməsi bu sahədə xidmət edən zabit və əsgərlərdən hər an yüksək peşəkarlıq və bacarıq tələb edir. Bu və ya digər vərdişlərə yiyələnmək üçün müntəzəm olaraq keçirilən təlim-məşqlərin böyük əhəmiyyəti var.

"N" hərbi hissəsinin şəxsi heyəti döyüş təcrübəsini daha da artırmaq, bu sahədə bilik və vərdişlərini təkmilləşdirmək məqsədi ilə xeyli müddətdir ki, təlim mərkəzində məşq edir, təcrübə keçir. Günlər arxada qaldıqca zabit və əsgərlərin peşəkarlığı daha da artır.



- Təlim günlərinin hər dəqiqəsindən, hər anından səmərəli istifadə etməyə çalışırıq, - deyə mayor Vüqar Şıxlinski sözə başladı. - Zabit və əsgərlərimizin döyüş hazırlığını daim yüksək səviyyədə saxlamaq üçün müntəzəm olaraq təlim-məşqlər, dərslər keçirik. Şəxsi heyət dərslərdə nəzəri cəhətdən öyrəndiklərini bu gün əməli surətdə görür. Nəzəri biliklərlə əməli hərəkətlər, vərdişlər üst-üstə düşəndə daha səmərəli olur. Elə təlimin keçirilməsində də əsas məqsəd döyüş vərdişlərini daha dərindən şəxsi heyətə aşılamaqdır. Məqsədimizə nail olmaq üçün bütün imkan və vasitələrdən bacarıqla istifadə edirik. Hələlik, təlim günləri davam edir. Biz zabitlər məqsədlərimizə mərhələ-mərhələ nail olacağıq. Əsgərlər geniş ərazidə təlim keçir. Texnikanın mühərriki uğuldayıb ətrafa səs salır. Səyyar maneəyaratma dəstəsinin şəxsi heyəti qarşıya qoyulan tapşırıqları yerinə yetirmək üçün cəld hərəkətlər edir. Hərbi texnika irəlilədikcə minalar xüsusi qurğu vasitəsilə torpağa basdırılır. Artıq "düşmən" bu sahədən keçə bilməz, minaya düşüb məhv olacaq. Təlim meydanında bir neçə texnika işləyir. Müşahidə edib gördüklərimdən belə qənaətə gəldim ki, istehkamçıların döyüş hazırlığı yüksək səviyyədədir. Onlar istənilən an verilən əmr və tapşırıqları yerinə yetirməyə qadirdirlər.



- Əsgərlərin yüksək hazırlıq nümayiş etdirməsi təlimlərin səmərəli keçməsindən xəbər verir, - deyə mayor Nurlan Axundov təlimin gedişindən qısaca danışdı. - Təlimlər uğurla davam edir. Əsgərlərimizin təcrübəsi gündən-günə artır. Döyüşlər zamanı məsuliyyətini dərindən dərk edən istehkamçılar daha çox bilik və vərdiş mənimsəmək üçün məşğələlərdə fəal iştirak edirlər. Belə həvəs və fəallıq sonda yeni döyüş vərdişlərinin mənimsənilməsinə gətirib çıxarır. Təlimdə fərqlənən əsgərlərdən manqa komandiri Valeh Bəylərov, Ayaz Səfərov və Yusif Aslanovun adlarını çəkmək istərdim. Bu istehkamçılar təlim zamanı üzərlərinə düşən bütün tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Cəmşid Naxçıvanski - 120*

# "Xan Naxçıvanski dağında sərkərdə yubileyi"

## Müdafiə Nazirliyi və Göygöl rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə tədbir keçirilib



***Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq görkəmli hərbi xadim Cəmşid Naxçıvanskinin 120 illik yubileyi ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, artıq ölkəmizdə yubiley tədbirlərinə start verilib.***





"Xan Naxçıvanski dağında sərkərdə yubileyi" adlanan ilk möhtəşəm yubiley mərasimində Müdafiə Nazirliyinin rəsmiləri, Göygöl rayon ictimaiyyətinin nümayəndələri və respublikanın ayrı-ayrı bölgələrindən gəlmiş qonaqlar iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə hörmət və ehtiram əlaməti olaraq gül dəstələri qoyulub. Xatirə kompleksi qarşısında Azərbaycanın istiqlaliyyəti, müstəqilliyi, ərazi bütövlüyü, eləcə də Böyük Vətən müharibəsində həlak olanların xatirəsi yad edilib. Göygöl-Hacıkənd yolunun sol tərəfində, minlərlə rayon sakininin və qonaqların toplaşdığı "Xan Naxçıvanski dağı"nın ətəyində üzərində "1918-1927-ci illərdə Cəmşid Naxçıvanskinin komanda-müşahidə məntəqəsi döyüşçülərinin və yerli əhalinin "Xan Naxçıvanski dağı" adlandırdığı bu təpənin zirvəsində yerləşmişdir" sözləri yazılmış abidənin açılışı olub. Tədbir iştirakçıları Cəmşid Naxçıvanskinin 43 illik qısa, lakin şərəfli ömür yolunu əks etdirən foto-sənədlərdən ibarət sərgiyə baxıblar.

Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin təşkili və keçirilməsi üzrə Təşkilat komitəsinin üzvü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək tamaşaçıların nəzərinə çatdırıb ki, ölkəmizdə görkəmli mütəfəkkir və tarixi şəxsiyyətlər, elm, mədəniyyət, incəsənət xadimləri ilə yanaşı, hərb tariximizdə müstəsna xidmətləri olan sərkərdələrin də yubileylərinin keçirilməsi, adlarının əbədiləşdirilməsi artıq bir ənənə şəklini alıb.

Qeyd olunub ki, hələ 1970-ci illərdə, totalitarizmin tüğyan etdiyi bir vaxtda ulu öndərimiz Heydər Əliyev qırmızı terrorun qurbanı olan Cəmşid Naxçıvanskinin adının əbədiləşdirilməsi üçün riskli qərarlar qəbul etmiş, Naxçıvanda onun ev muzeyinin açılmasına, Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulmasına, yubileyinin dövlət səviyyəsində qeyd olunmasına və Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olmuşdur.



Həm xalqımız, həm də Silahlı Qüvvələrimizin şəxsi heyəti tərəfindən böyük minnətdarlıqla qarşılanan ölkə başçısı İlham Əliyevin bu sərəncamı da hərb tariximizə sonsuz sevgi və məhəbbətin təzahürü olmaqla yanaşı, həm də xalqımızın ümummilli liderinin bu istiqamətdə ənənələrinin uğurlu davamıdır.

Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir.



Göygöl rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov, general-leytenant Yaşar Aydəmirov, C.Naxçıvanski adına Hərbi Liseyin ilk məzunlarından olan general-mayor Mehman Baxışov öz çıxışlarında hərbi şöhrət tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlıqlarını bildirib və keçirilən tədbirlərin gənclərin Vətənə məhəbbət ruhunda tərbiyəsində, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində mühüm əhəmiyyət kəsb edəcəyini vurğulayıblar.



300 nəfərdən çox hərbi qulluqçunun, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, Gəncə Dövlət Dram Teatrı aktyorlarının, Göygöl rayon Mədəniyyət və Turizm Şöbəsinin birləşmiş bədii özfəaliyyət kollektivlərinin iştirakı ilə "Xan Naxçıvanski dağında sərkərdə yubileyi" teatrlaşdırılmış kütləvi vətənpərvərlik mərasimi tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.



Cəmşid Naxçıvanskini dünyaya bəxş edən qədim Naxçıvanın memarlıq abidələrinin fonunda Xan Kəngərlilər nəslinin şəcərəsi vərəqlənib. Aktyorlar Cəmşid xan, onun atası Cəfərqulu xan, qardaşı Ehsan xan, anası Fərəntac xanım, general Əlağa Şıxlinski, Nuru paşa obrazlarını məharətlə yaradıblar. Cəmşid xanın süvari alayının Xan Naxçıvanski dağında görünməsi, general Şıxlinskinin təlimləri izləmək üçün bu dağa gəlməsi və alayın burada and içərək Gəncəyə doğru irəliləyən bolşevik-daşnak qoşunlarına qarşı mübarizəyə yollanması, Bakının işğaldan azad edilməsi, Cəmşid xanın İkinci Qarabağ süvari alayının şəxsi heyəti ilə birlikdə Şuşada şücaətlər göstərməsi, ilk Azərbaycan dağ-atıcı diviziyasının komandiri kimi müstəsna xidmətləri, Frunze adına Hərbi Akademiyada kurs rəisi vəzifəsinədək yüksəlməsi və eləcə də 3 dəfə həbsə alınması, Nargin adasında üç aya yaxın məhbus həyatı sürməsi və nəhayət, 1938-ci ildə "Sovet hakimiyyətinin qatı düşməni, Azərbaycanın SSRİ-dən ayrılması üçün fəal iş aparmış antisovet ünsür, müqəssir, casus damğası ilə güllələnmə cəzasına məhkum edilməsi və onun "Mən qayıdacağam, mən xalqımın, millətimin, bir də Xan Kəngərlilər nəslinin qarşısında heç vaxt gözükölgəli deyiləm, mən qayıdacağam!" daxili monoloqu tamaşaçılara qürurverici və duyğulu anlar yaşadıb.

Aparıcıların "Bəli, xalqımızın ümummilli lideri Heydər Əliyevin sayəsində uzun illərdən sonra Cəmşid Naxçıvanski yenidən Vətənə qayıtdı və xalqın xatirəsində əbədi yaşamaq hüququ qazandı. İndi müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələrində Cəmşid Naxçıvanskinin yüzlərlə, minlərlə davamçıları var və onlar xalqımıza, dövlətimizə, Heydər Əliyev ideyalarına həmişə sadiqdirlər, Azərbaycan naminə, vaxtilə Cəmşid Xanın da daşnaklara qarşı mübarizə apardığı və qardaşı Ehsan xanı şəhid verdiyi Qarabağ uğrunda Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdırlar" sözləri ilə "Xan Naxçıvanski dağında sərkərdə yubileyi" başa çatıb.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər:

# hadisələr, faktlar

### AŞPA-da türkcədən də rəsmi dil kimi istifadə olunacaq



Avropa Şurası Parlament Assambleyasında artıq türkcədən də rəsmi dil kimi istifadə olunacaq. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Şuranın Daimi Komissiyası Sarayevoda keçirdiyi yığıncaqda Türkiyə barədə iki önəmli qərar qəbul edib.

Avropa Şurası Parlament Assambleyası türkcəni rəsmi çalışma dili qəbul edən və Türkiyənin üzv sayını 12-dən 18-ə çıxarmağı nəzərə alan qanunu təsdiqləyib. Bununla da Türkiyə Avropa Şurası Parlament Assambleyasında İngiltərə, Fransa, Almaniya, İtaliya və Rusiya kimi 18 deputatla təmsil olunacaq. Türkiyənin Avropada əhali sayının ən çox olduğu üçüncü ölkə olması qərarın qəbul edilməsinə öz təsirini göstərib.

### Yəmən: ölkənin üçüncü böyük şəhəri olan Taizdə şiddətli döyüşlər gedir



Yəmənin Taiz şəhərində "Ənsar Allah" hərəkatının tərəfdarları olan husi-şiə üsyançıları ilə yerli əhalidən təşkil olunmuş könüllülərdən ibarət xalq müqavimət komitəsinin döyüşçüləri (Prezident Abd Rabbo Mansur Hadiyə sadiq qüvvələr) arasında yeni şiddətli toqquşmalar qeydə alınıb.

Euronews telekanalı xəbər verir ki, yerli sakinlərin sözlərinə görə, döyüşlərdə ağır texnikadan, o cümlədən artilleriya vasitələrindən istifadə olunur. Raket və qumbaralar şəhərin yaşayış məhəllələrinə düşür.

Yəməndəki münaqişə nəticəsində indiyədək 1800 nəfərdən çox insan həyatını itirib, 500 mindən çox insan isə evlərini tərk etmək məcburiyyətində qalıb.

### Qara dənizin sualtı mədəni irsinin xəritəsi tərtib olunacaq



AZƏRTAC xəbər verir ki, dənizin dibinin öyrənilməsi layihəsini Bolqarıstanın Sualtı Arxeologiya Mərkəzi və Böyük Britaniyanın Sautqempton Universiteti həyata keçirəcək. Layihə UNESCO-nun Bolqarıstan ilə imzaladığı Sualtı mədəni irsin qorunması haqqında beynəlxalq konvensiyaya uyğun olaraq üç il müddətinə reallaşdırılacaq.

### Suriyada 300-dən artıq terrorçu məhv edilib



Suriyanın İdlib əyalətinin Cisr eş-Şuğur şəhərində "Cabhat ən-Nusra" terrorçu qruplaşmasının 300-dən artıq üzvü məhv edilib, yüzlərlə ekstremist yaralanıb. Bu barədə Suriyanın SANA informasiya agentliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, hadisə hökumət qoşunlarının şəhər xəstəxanasını "Cabhat ən-Nusra" qruplaşmasının mühasirəsindən xilas etməsi məqsədilə kütləvi hücumu nəticəsində baş verib.

### Hindistanda isti hava qurbanlarının sayı 330 nəfəri keçib



Hindistanın Cənubi Andxra-Pradeş və Telenqana ştatlarında isti hava qurbanlarının sayı 330 nəfəri keçib. Burada havanın temperaturu normanı 5-7 dərəcə üstələyərək, 48 dərəcəyə yüksəlib.

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, ölənlərin əksəriyyəti evsiz insanlardır. Meteoroloqların sözlərinə görə, havanın temperaturu yaxın günlərdə düşməyəcək.

Yerli hakimiyyət orqanları insanlara bu günlərdə küçəyə çıxmamağı məsləhət görür və təhlükəsizlik qaydalarına riayət etməyə çağırır.

### Türkiyədəki Beçin qalası UNESCO-nun Dünya İrsi Siyahısına daxil ediləcək



Türkiyənin Muğla vilayətindəki Beçin qalasının Dünya İrsi Siyahısına daxil edilməsi üçün UNESCO-ya müraciət olunub.

Türkiyə mediasının məlumatına görə, ölkədəki qədim Beçin şəhəri 2012-ci ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Beçin qalası isə bu bölgədə yerləşən eyniadlı kəndin ərazisindədir. Bu ərazidə çoxlu sayda qədim abidə, o cümlədən Əhməd qazi türbəsi yerləşir. Bildirilir ki, qalanın qüllə və bürcləri bugünədək möhkəmliyini qoruyub saxlayıb. Aparılan arxeoloji qazıntılar qalanın hüdudlarının müəyyənləşdirilməsinə imkan verəcək.

### Kann film festivalı finiş xəttinə yaxınlaşır




Fransanın Kann şəhərində keçirilən film festivalı finiş xəttinin bir addımlığındadır. Mayın 23-də məşhur Festivallar sarayında əsas müsabiqə proqramı filmlərinin nümayişi başa çatıb.

AZƏRTAC xəbər verir ki, Avstriya rejissoru Castin Kurzelin Uilyam Şekspirin eyni adlı pyesi əsasında ekranlaşdırılmış "Maqbet" filmi "Qızıl palma budağı" mükafatına iddialı 19 ekran əsərindən sonuncusu olub. Yüksək mükafata əsas namizədlər arasında italyan rejissoru Nanni Morettinin "Mənim anam", onun həmvətəni Paolo Sorrentinonun "Gənclik", baş rollarda Todda Xeynslə Keyt Blanşettin çəkildikləri "Kerol" filmləri var.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

